# Məhbus əlillərin həyatı

Əvvəli səh. 1-də

Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN), beynəlxalq təşkilatlar və eləcə də müxtəlif qeyri-hökumət təşkilatları ilə birgə tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi, bu kateqoriyadan olan məhkumların əsas ehtiyaclarından biri ortopedik xidmətdir. Bu işdə Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Penitensiar Xidmətlə əməkdaşlığı xüsusi diqqətə layiqdir. 2009-cu il sentyabr ayının 8-də BQXK-nin təşəbbüsü ilə Protez -Ortopedik Mərkəzdə bu məqsədlə xüsusi görüş keçirilmiş və Azərbaycanın cəzaçəkmə müəssisələrində olan əlil şəxslərə ortopedik xidmətlərin göstərilməsinin təşkilinə dair məsələlər müzakirə edilmişdir. Görüşün nəticəsi olaraq bütün penitensiar xidmət üzrə ortopedik xidmətə ehtiyacı olan 35 nəfərin siyahısı müəyyənləşdirilmiş və bu ilin sonunadək həmin şəxslərin müvafiq protezlərlə təmin olunmaları nəzərdə tutulmuşdur.

Eyni zamanda, cəzaçəkmə müəssisəsində olan əlil məhkumların pensiya təminatı ilə bağlı meydana çıxan problemlər ƏƏSMN-nin müvafiq strukturları ilə birgə həll edilir.

**-Mehman müəllim, bəs sizin əməkdaşlar arasında əlillər və müharibə veteranları varmı?**

-Bəli, Penitensiar Xidmətdə çalışan əməkdaşlar arasında yüzlərlə müharibə veteranları vardır ki, onlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmişlər. Həmin şəxslərə ölkəmizdə müharibə veteranlarına aid olan hüquq və imtiyazlar şamil edilir.

**-Maraqlı müsahibəyə görə Sizə öz təşəkkürümüzü bildiririk.**

***Tahir Xudiyev***

# Növbəti xeyirxah tədbir

## *Saray qəsəbəsindəki 7 saylı İnternat Evində keçirilmiş tədbir xanım Kanta Taluktar Stankinanın təşəbbüsü ilə baş tutub*

Əvvəli səh. 1-də

Xanım Kantanın istəyi və arzusu ilə mərasimi giriş sözü ilə BƏCİB -nin sədri və qəzetimizin baş redaktoru Tahir Xudiyev açdı. Tahir Xudiyev tədbiri giriş sözü ilə açaraq bütövlükdə xanım Kantanın ölkəmizdə gördüyü xeyirxah işlərdən ətraflı danışdı. T. Xudiyev öz məzmunlu və maraqlı çıxışında bildirdi ki, xeyirxah və mərhəmətli insanlar yalnız bir xalqa, bir millətə məxsus olmurlar. Onlar, həqiqətən, bütün bəşəriyyətin vətəndaşlarıdır. İrqindən , dinindən, dilindən asılı olmayaraq, qayğıya ehtiyacı olan hər bir kəsə bacardığı köməkliyi edən belə insanlardan biri də xanım Kanta Taluktar Stankinadır. Məqamı ikən, onu da qeyd edək ki, səfir cənab Pyer Kristofer Stankina özünün diplomatik səriştəsi, eləcə də sadəliyi və səmimiyyəti ilə Azərbaycan - Almaniya münasibətlərinə daha çox doğmalıq və istilik gətirmişdir. Xalqımızın belə bir gözəl atalar məsəli var: ərlə arvadın torpağı bir yerdən götürülər. Həqiqətən də, xanım Kanta öz insani səmimiyyəti, mehribanlığı və xeyirxahlığı ilə özünü xalqımıza sevdirmişdir. T.Xudiyev çıxışına davam edərək bildirdi ki, xanım Kanta 3 ilə yaxındır respublikamızda yaşayır. O, tez-tez əlil evlərində, uşaq evlərində, internat məktəblərində olur, onların problemləri ilə maraqlanır. Xanım Kanta 3 il müddətində respublikamızda Avropadan gətirilmiş 20 layihəni həyata keçirmişdir. Bu məktəbə yardım edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Azərbaycana Birgə Yardım Təşkilatı" və xanım Kanta birgə memorandum imzalamışlar və bu məktəbi xanım Kanta himayəyə götürmüşdür. Saray qəsəbəsindəki bu məktəb pilot məktəb olaraq seçilib və layihələrin əksəriyyəti ilk dəfə burada həyata keçirilir. Elə bugünkü tədbir də xanım Kantanın xeyirxahlığının növbəti bariz nümunəsidir. Mən xanım Kantanın bu xeyirxah təşəbbüsünə müsbət yanaşaraq göstərdikləri köməkliyə görə cənab Pradip Karvarkara və cənab Praşant Mişraya da öz dərin təşəkkürümü bildirirəm. Tam səmimiyyəti ilə bildirəm ki, bu məktəbdəki uşaqlar xanım Kantanı çox sevir və onun şəxsində özlərinə çox doğma olan bir insanı görürlər.

Təbii ki, uşaqların onu özlərinə belə doğma bilmələrinin kökündə xanım Kantanın insanpərvərliyi, səmimiyyəti və qayğıkeşliyi dayanır.





Diqqətinizə onu da çatdırım ki, xanım Kantanın təşəbbüsü ilə həyata keçirilən daha yeni bir layihə var ki, bu layihə "Mətbəx layihə"si adlanır. Layihənin həyata keçitilməsində məqsəd əlil uşaqların özləri üçün yemək bişirməyi öyrənmələridir. Xanım Kanta uşaqların məntiqinin inkişaf etdirilməsinə də xüsusi qayğı ilə yanaşır. Bu məqsədlə uşaqlara özlərinə oyuncaq hazırlamaq öyrədilir. Digər bir layihə isə rəqs terapiyası ilə bağlıdır. Bu layihə ilk dəfə keçirilir.

Xanım Kantanın bu internat məktəbuinə göstərdiyi maddi-mənəvi dəstək onun xeyirxah fəaliyyətinin bir nümunəsidir. Burada yaradılan xüsusi məşğələ otaqları xanım Kanta Stankinanın maddi köməyi hesabına müasir avadanlıqla təchiz edilib. Eyni zamanda, o, fiziki problemli uşaqlar üçün tələb olunan xüsusi stol və stulların, arabaların alınmasını, uşaqların fiziki inkişafı üçün terapiya otağının yaradılmasını da təşkil etmişdir. Xüsusi məşğələ otaqlarında uşaqlarla məşğul olan 8 nəfər işçinin əmək haqqını da xanım Kanta ödəyir. Eyni zamanda, xanım Kanta Bakı Qaçış Klubunun təqdim etdiyi pul vəsatini 2 dəfə artıraraq bu məktəbə sənaye üsulu ilə paltaryuyan maşının alınmasını təşkil etmişdir. Ümumiyyətlə, xanım Kantanın Azərbaycanda həyata keçirdiyi xeyirxah işləri saymaqla qurtaran deyil. Biz, BƏC və "Əlillər Dünyası" qəzeti olaraq xanım Kantaya uzun ömür, cansağlığı və gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayır. arzulayırıq. Eyni zamanda, fürsətdən istifadə edərək, xanım Kantadan BƏC-in və "Əlillər Dünyası" qəzetinin fəxri üzvü olmasına razılıq verməsini kollektivimiz adından xahiş edirəm.

Xanım Kanta T.Xudiyevin bu səmimi təklifinə etiraz etmədi.

Mərasimdə məktəbin direktoru Şükür Əhmədov çıxış edərək onlara göstərilən bu qayğı və köməkliyə görə öz dərin təşəkkürünü bildirdi. Bundan əlavə, Ş.Əhmədov qonaqlara uşaqların məktəbin həyətində saldıqları bostanı da göstərdi.

Yeri gəlmişkən, bu yaxınlarda Alman-Azərbaycan Mədəniyyət Birliyinin "Kapellhaus"da keçirdiyi Alman Milad Bayramı Yarmarkasından əldə olunan maliyyə vəsaiti də Saraydakı 7 saylı uşaq evinə və Bakıdakı Lüteran kilsəsinin uşaq layihələrinin keçirilməsinə yönəldilmişdir. Bu tədbirdə də Almaniyanın, İtaliyanın, Rumıniyanın və digər xarici ölkələrin səfirləri, eləcə də ölkəmizdə fəaliyyət göstərən digər beynəlxalq təşkilatların təmsilçiləri iştirak etmişlər.




***Məlahət Abdullayeva,***
***Mahir Əzizov***

# Orta təhsil müəssisələrində özbaşınalıq

Son illər ölkəmizdə elm və təhsil sahəsində Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev və xanımı, millət vəkili, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən görülən işlər, həyata keçirilən tədbirlər hamı tərəfindən razılıqla qarşılanır. Yeni və müasir məktəb binalarının inşası, əksər məktəblərin yenidən təmir olunması, kompyuterləşdirilməsi, istilik sistemlərinin qurulması, və s. ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hətta əməkdaşlarımız ezamiyyətdə olduqları ən ucqar dağ kəndlərində belə, məktəblərin yenidən qurulmasının şahidi olublar. Lakin bütün bunlara baxmayaraq, Təhsil Nazirliyinin tabeliyində olan orta məktəblərin əksəriyyətində rüşvətxorluq halları dözülməz həddə çatıb. Belə ki, dəfələrlə bu problemlə bağlı mətbuatda, radio və telekanallarda haqlı və əsaslı tənqidlər səslənməsinə baxmayaraq, hələ də orta məktəblərdə "fond pulu", "süpürgə pulu", "gündəlik pulu" və s. adlar altında müxtəlif məbləğdə pul yığılır. Məsələ burasındadır ki, bu pulları tələb edərkən şagirdin valideyninin maddi durumu nəzərə alınmır. Fərq qoymurlar ki, bu şagirdin valideyni əlildir, şəhid ailəsidir, məcburi köçkündür, tənha qadındır və s. Bu kateqoriyadan olan valideynlər də övladlarının başqa uşaqların yanında pərt olmamaları üçün min bir əziyyətlə qazandıqları puldan və ya cüzi təqaüddən bu "fonda" pul verməyə məcbur olurlar. Ən qəribəsi isə budur ki, bu pulları yığmaq üçün məktəblərdə valideyn komitələri yaradılıb və onların banklarda xüsusi hesab nömrələri açılıb. Həmin hesab nömrələri pul keçirmələri üçün valideynlərə verilir. Yəni rüşvət bir növ "qanuniləşdirilir". Məktəbin direktoruna bu barədə dedikdə cavab verir ki, guya, onun bu işlərdən xəbəri yoxdur, valideynlər özləri bu işi könüllü təşkil edirlər. Hətta belə hallar da var ki, müəllimlər qəsdən normal dərs keçmirlər ki, ilin sonunda uşaqlar yenidən hazırlaşdırmaq üçün əlavə pul verməklə həmin müəllimlərə müraciət etsinlər. Çox qəribədir ki, təhsilə dövlət büdcəsindən kifayət qədər vəsait ayrılmasına baxmayaraq, guya bu "fonda" yığılan pullar məktəblərin təmir olunmnasına sərf olunur...




Təhsil Nazirliyinin tabeliyində olan əlil, atılmış və lal-kar uşaqlar üçün nəzərdə tutulmuş xüsusi təyinatlı məktəblərdə də özbaşınalıq tüğyan edir. Adama elə gəlir ki, bu məktəblər sanki kimlərinsə xüsusi mülkiyyətidir. Bu məktəblərə təyin olunmuş direktorların hər biri həmin müəssisələri ciddi rejimlə idarə edir və kənardan heç kimin, o cümlədən mətbuat nümayəndələrinin məktəbdə aparılan işlərlə tanış olmasına imkan vermirlər... Məktəbin müəllimləri də direktorun qorxusundan bizim əməkdaşlarla ünsiyyət yaratmaqdan qorxurlar. Qəzetimiz və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi (BƏCİB) beynəlxalq təşkilatlar, xarici səfirlikər və s. ilə qarşılıqlı fəaliyyət göstərdiyindən məqsədimiz bu kateqoriyadan olan məktəblərdə oxuyan şagirdlərin şəraitini bir az da olsa yaxşılaşdırmaq üçün vəziyyəti dövlətimizin nəzərinə çatdırmaq, müxtəlif ölkələrin səfirlərini, şirkətlərin rəhbərlərini həmin müəssisələrə gətirib tanış etmək və onların köməklikləri ilə məktəblərin hər hansısa bir problemini həll etməkdir. Digər tərəfdən, xeyriyyəçi insanları bu işə cəlb etməklə dövlətimizə köməklik göstərmək istəyirik. Lakin çox əfsuslar olsun ki, orta təhsil müəssisələrinin rəhbərləri bizə bu xeyirxah fəaliyyətimizi həyata keçirməyə imkan vermirlər. Dəfələrlə əlaqədar dövlət təşkilatlarının mətbuat xidmətlərinə müraciətə etsək də, bu işdə bizə heç bir köməklik göstərilməyib. Bir neçə dəfə Təhsil Nazirliyinin "Qaynar xətti"nə də zəng vurmuşuq, lakin heç bir müsbət nəticəyə nail olmamışıq... Halbuki, hazırda bəzi dövlət qurumlarının "Qaynar xətt"ləri vətəndaşlara nümunəvi xidmət göstərirlər. Bu baxımdan Daxili İşlər Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və digər nazirliklərin "Qaynar xətt"lərinin fəaliyyəti xüsusi qeyd oluna bilər.

Görəsən, təhsildəki bu özbaşınalıq çoxmu davam edəcək?

***Bəxtiyar Rzayev,***
***Hikmət İslamoğlu***

# Kim haqlıdır: təqaüdçülər, yoxsa DSMF?

Son vaxtlar respublikamızda təqaüdlərin vaxtlı-vaxtında verilməməsi ölkə ictimaiyyətinə yaxşı məlumdur. Təqaüdlərin gecikdirilməsi isə, təbii ki, sadə vətəndaşlar arasında haqlı narazılığa səbəb olur. Elə təqaüdləri gecikdirilən şəhid ailələri, müharibə veteranları, tənha qocalar və bütün kateqoriyadan olan əlillər redaksiyamıza və cəmiyyətimizə bu məsələ ilə bağlı müraciət etmələri də problemin ciddiliyini bir daha göstərir. Biz də öz növbəmizdə bir mətbu orqan olaraq təqaüdlərin gecikdirilməsi səbəblərinə aydınlıq gətirmək məqsədi ilə 19 oktyabr 2009-cu il tarixində 380 saylı məktubla Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri cənab Səlim Müslümova müraciət etmişdik. DSMF-nin redaksiyamıza 30 oktyabr 2009-cu il tarixində ünvanladığı 03/04-2795 saylı məktubda isə vəziyyətin səbəbi izah edilir. Biz də məktubu olduğu kimi dərc edərək düzgün nəticə çıxarmağı dəyərli oxucularımızın öz ixtiyarına buraxırıq.




**Hörmətli Tahir müəllim!**

Əhaliyə ödənişlərin verilmə müddətləri ilə bağlı müraciətinizə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna baxılmışdır.

Bildiririk ki, mövcud qanunvericiliyə görə, əhaliyə pensiya və müavinətlər üzrə ödənişlərin əsas hissəsi məcburi dövlət sosial sıqorta haqları hesabına maliyyələşdirilir. Bu isə əhaliyə pensiya və müavinətlər üzrə ödənişlərin aparılma müddətlərini söğortaedənlər tərəfindən məcburi dövlət sosial söğorta haqlarının Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə ödənilməsi müddətindən asılı olduğunu şərtləndirilir.

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanunun 14-cü maddəsinə əsasən sığortaedənlər tərəfindən hər ay üçün hesablanmış məcburi dövlət sosial sığorta haqqı əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə nağd və ya nağdsız hesablaşma qaydasında ödənilir.

Ötən dövr ərzində əhaliyə ödənişlərin maliyyələşdirilməsi məcburi dövlət sosial sığorta haqlarının və dövlət büdcəsindən ayrılan transfertin Fondun dövlət xəzinədarlığındakı xəzinə hesabına köçürülməsi vəziyyətindən asılı olaraq həyata keçirilmişdir. Bu halda mövcud xəzinə və bank sistemində köçürmələr üzrə xəzinə və bank əməliyyatlarının aparılmasına 2-3 gün əlavə vaxt tələb olunur.

Göstərilənləri nəzərə alaraq Dövlət Sosial Müdafiə Fondu əhaliyə ödənişlərin vaxtında və tam maliyyələşdirilməsini təmin etmək məqsədilə zəruri tədbirlərin həyata keçirildiyini bildirir.

***Əjdər Cəbiyev,***
***Aparat rəhbəri***

# Bələdiyyələrdə özbaşınalıq nə vaxta qədər davam edəcək?

## Yazdıqlarımıza qayıdırıq

Qəzetimizin ötən sayında redaksiyamıza daxil olan şikayətlər əsasında "Bələdiyyələrdə özbaşınalıq davam edir" sərlövhəli tənqidi yazı dərc olunmuşdu. Xatıqladaq ki, sözügedən yazıda ümumi şəkildə bəzi bələdiyyə sədrlərinin qanunu müxtəlif formalarda pozmalarından bəhs olunurdu. Həmin vaxtlar mövzu ilə bağlı jurnalist araşdırmalarımız tam başa çatmadığı üçün biz həmin bələdiyyələrin adlarını ictimaiyyətə açıqlamamışdıq. Artıq araşdırmalarımız başa çatdığından biz qəzetimizin bu sayında həlelik onlardan ikisinin adını oxucularımıza açıqlayırıq. Bu, Əhmədli kənd bələdiyyəsi və Balaxanı bələdiyyəsidir. Yeri gəlmişkən, onu da qeyd edək ki, son vaxtlar redaksiyamıza adıçəkilən bələdiyyələrin xoşagəlməz əməlləri ilə bağlı yeni məlumatlar da daxil olmaqda davam edir. Biz də öz növbəmizdə bu məlumatları qanun çərçivəsində araşdıracaq və vətəndaşlara obyektiv məlumat verməyə çalışacağıq.

***Cahid Sabiroğlu***

# Minnətdarlıq

Redaksiyamıza Şuşa şəhərindən olan məcburi köçkün, hazırda Nizami Rayon Prokurorluğunun əməkdaşı Sərvinaz Quliyeva və onun qızı Lalə Quliyeva tərəfindən və eləcə də cəmiyyətimizin üzvü Hacı Məhəmməd və onun həyat yoldaşı Gövhər xanım tərəfindən ünvanlanmış minnətdarlıq məktubları daxil olub. Sərvinaz və Lalə Quliyevalar bu ilin avqust ayının 22-dən sentyabr ayının 11-ə qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Şağan qəsəbəsindəki Müharibə Əlilləri üçün Pansionatda müalicə olunarkən göstərilən yüksək qayğı və diqqətə görə Pansionatın baş həkimi Arif Məmmədova, onun müavini Hüseyn Tahirova, həkimlər Məlahət xanıma, Təranə xanıma, tibb bacısı Sədaqət xanıma, qeydiyyatçı Zülfiyyə xanıma, masajçılar Fəridə xanıma, Səadət xanıma, Natiqə xanıma və Almaz xanıma, Hacı Məhəmməd və Gövhər xanım isə Mərdəkanadakı əlillər və veteranlar üçün xəstəxanada onlara göstərilən yüksək tibbi xidmətə görə həmin xəstəxananın baş həkimi Vaqif həkimə, onun müavini Xuraman xanıma və şöbə müdiri Telman həkimə öz dərin təşəkkürlərini bildirirlər.

***"Əlillər Dünyası"***